# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 414** **Bakı şəhəri, 25 dekabr 2021-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının daxilində təbii qaz təchizatının təşkil edilməsi haqqında" 2020-ci il 28 dekabr tarixli 513 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, daxili bazarda təbii qazın alqı-satqı əməliyyatlarını optimallaşdırmaq və bununla bağlı səmərəli idarəetməni təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının daxilində təbii qaz təchizatının təşkil edilməsi haqqında" 2020-ci il 28 dekabr tarixli 513 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1614) 1-ci hissəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Müəyyən edilsin ki, bu fəaliyyət üzrə "Azərkontrakt" ASC-nin illik dövriyyəsinin 0,5 faizinədək məbləğdə vəsait onun idarəetmə xərclərinə, o cümlədən maddi-texniki bazasının təkmilləşdirilməsinə, işçilərin əməyinin ödənilməsinə və digər formada maddi həvəsləndirilməsi məqsədlərinə, habelə ölkədə qaz təchizatı ilə əlaqəli proqnoz xarakterli tədqiqatların aparılmasına və müvafiq təkliflərin hazırlanmasına yönəldilir.".

**2.** "Azərkontrakt" Açıq Səhmdar Cəmiyyətinə tapşırılsın ki, ona həvalə edilmiş vəzifələrin icrasını nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla yeni ştat cədvəlini bir ay müddətində təsdiq etsin.

**3.** Bu Qərar 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV***

***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti .- 2021.- 29 dekabr.- S.8.